# Yazıçılar Birliyində Ümummilli Lider Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilib



Dekabrın 12-də Azərbaycan Yazıçılar Birliyində Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr edilmiş tədbir keçirilib. Tədbiri giriş sözü ilə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar açaraq Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələrindən danışıb: "Heydər Əliyev ən böyük azərbaycanlı idi. Onun şəxsiyyətinə dünya liderləri pərəstiş edirdi. Onun siyasi kursu bu gün də uğurla davam etdirilir. O, Azərbaycan xalqı üçün İlham Əliyev kimi siyasi lider yetişdirdi. Məhz İlham Əliyevin sərkərdəliyi altında bizə bir vaxtlar yuxu kimi gələn bütövlüyümüzü təmin etdik və torpaqlar işğaldan azad olundu. Bütün bunlar Ulu Öndərin ən çox arzuladığı məsələlər idi. Əfsus ki, o, bu günləri görmədi. Onun xatirəsi mənim üçün hər zaman əziz olacaq. Ruhu şad olsun!"

Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid Ümummilli Lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinə, Azərbaycan ədəbiyyatına diqqət və qayğısından söz açıb. Ulu Öndərin Azərbaycan Yazıçılar Birliyinin mətbu orqanlarının fəaliyyətinin bərpa edilməsinə, maliyyə böhranından xilas olmasına dəstəyini vurğulayıb. Ulu Öndərin qələm adamlarına diqqət və qayğısından danışan Rəşad Məcid Xalq yazıçısı Anarın "Unudulmaz görüşlər" kitabında Ulu Öndərlə bağlı dəyərli məqalələrin yer aldığını qeyd edib.

Yazıçılar Birliyinin katibi Elçin Hüseynbəyli Heydər Əliyev şəxsiyyətindən, Ulu Öndərin Azərbaycan üçün dəyərindən söz açıb. Elçin Hüseynbəyli Azərbaycan Yazıçılar Birliyinin Heydər Əliyevin xatirəsinə həsr edilmiş "Ədəbi ömrün yüz ili" kitabının, kitabda yer almış məqalələrin əhəmiyyətindən danışıb: "Mən həmişə Heydər Əliyevlə yaxın ünsiyyətdə olmuş, onunla çalışmış qələm adamlarına həsədlə baxmışam. Bu kitabda yer almış məqalələrdə Ulu Öndərlə bağlı dəyərli xatirələr yer alıb. Bu kitab hər kəsin stolüstü kitabı olmalıdır".

Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu Heydər Əliyevin həm sovet dövründə, həm müstəqillik illərindəki siyasi fəaliyyətindən, dünyanın önəmli liderlərinin Heydər Əliyevin qarşısında keçirdiyi həyəcan hisslərindən, Ulu Öndərin Azərbaycan dilinin dövlət dili olması yolundakı uğurlu siyasi fəaliyyətindən söz açıb. O, qeyd edib ki, Ulu Öndər "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam" deyərək, buna hər hərəkəti ilə, həyat tərzi ilə, gündəlik hər bir addımı ilə örnək idi, həm də başqalarına Azərbaycana və azərbaycanlılara hörmət hissi aşılayırdı. Səlim Babullaoğlu "Bu gün hansı istiqamətə baxsan, Heydər Əliyevin gördüyü işlərlə, onun ayaq izləri ilə rastlaşırsan. Allah rəhmət eləsin!" - deyə çıxışını yekunlaşdırıb.

Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri Əsəd Cahangir Ulu Öndərin, hətta sovet dövründə vəzifədə olarkən milli ruhu üstün tutmasından, Azərbaycan mədəniyyətinə, incəsənətinə xüsusi diqqət göstərməklə onu dünyaya tanıtmasından söz açıb. "Nizami", "Nəsimi" filmləri, Nərimanov haqqında "Ulduzlar sönmür" filmi, fəxri adların verilməsi təşəbbüsü bunlara bariz nümunədir. "Heydər Əliyev qələm adamlarına təkcə diqqət göstərmirdi, həm də onları o dövrün təzyiqindən müdafiə edirdi, qoruyurdu. Bəxtiyar Vahabzadə "Gülüstan" romanına görə təqib olunanda da Heydər Əliyev onu müdafiə etmişdi, qorumuşdu".

"Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə Ulu Öndərlə görüşlərindən, onunla bağlı xatirələrindən, Heydər Əliyevin sənət adamlarına, xüsusilə, yazıçılara diqqət və qayğısından danışıb. "Heydər Əliyev hər səfərə gedəndə yazıçıları, sənət adamlarını da dəvət edirdi. Belə səfərlər unudulmaz olurdu. Heydər Əliyev əvəzsiz şəxsiyyət idi. Ruhu şad olsun!"

**AYB.az**